Tarix və onun problemləri, №1 2010

R.Ş.ŞAHBAZOVA

# AZƏRBAYCANIN ETNİK TARİXİ MƏSƏLƏLƏRİNƏ V.V.BARTOLDUN BAXIŞI

Erkən orta əsrlər tarixinin bəlkə də ən mübahisəli, tarixçidən çox böyük diqqət və ehtiyat tələb edən, üstəlik, əksər dünya xalqları üçün elmi həllini tapmadığı məsələsi – etnogenezis məsələsidir. Xalqın mənşəyində duran tayfaların tarixi, dövlət qurumlarının bu prosesə təsiri və s. bu kimi məsələlər əslində təkcə qədim dünya tarixi ilə məşğul olan tədqiqatçıları deyil, ortaəsrşünasları da narahat edən elmi problemdir. əslində, bu, konrket hansısa bir xalqın yaşamış olduğu etnik-siyasi tarixdən daha çox, dövrün özünün mürəkkəbliyinə bağlıdır. İstər Avropa, istər Asiya məkanında olsun, - xalqların formalaşması çox çətin, uzun çəkmiş bir proses olub öz təsirini (təssüf ki) müasir dövrədək saxlamışdır.

Erkən orta əsrlər eramızın ilk onillikərində həm planetdə gedən təbii şərtlər üzündən, həm təsərrüfat əlaqələri və siyasi proseslərin təsirilə baş vermiş «Xalqların Böyük Köçü» ilə başlayır. Bu dövrdə barbar krallıqları nümunəsində iri dövlət qurumları, hətta imperiyalar tez yaranıb, tez də yoxa çıxır. Həm Avropanın, həm Asiyanın daxili rayonlarının məskunlaşması sürətlənir. Təbiidir ki, bu nəhəng miqrasiyalar və siyasi kataklizmlər bəzi xalqların tamamilə məhvinə, digərilərinin assimilyasiyasına gətirib çıxarır, yeni xalqların yaranmasına səbəb olurdu.

Azərbaycan xalqının etnogenezisi də məskunlaşdığı məkanın geosiyasi durumu və erkən orta əsrlərin şərtləri altında çətin, mürəkkəb, təzadlı yollardan keçmişdir: azərbaycanlıların etnogenezisində bir çox tayfa və xalqlar iştirak etmişdir və bu prosesin araşdırılması da, heç şübhəsiz, tarixzi üçün xeyli çətinliklər doğurur.

Hazırkı dissertasiya işi azərbaycanlıların etnik tarix məsələlərini araşdırmır, ona görə də biz problemə sadəcə akademik V.V.Bartoldun müvafiq yazıları fonunda, təbii ki, müasir Azərbaycan tarixşünaslığının uğurları və obyektiv tələbləri aspektində nəzər yetirəcəyik.

V.V.Bartoldun Azərbaycanın etnik tarixi və Azərbaycan xalqının formalaşması ilə bağlı mülahizələrini təhlil etməzdən əvvəl bir vacib məsələnin üzərində dayanmalıyıq: akademik erkən orta əsrlərin başlanğıcında Avrasiya məkanında gedən etnik-siyasi hadisələrə yaradıcılığında böyük yer ayırsa da, konkret xalqların etnik mənşəyini ikinci dərəcəli hesab etmişdir. V.V.Bartold üçün etnogenezisin kvintessensiyası əhəmiyyətli deyil, prosesdəki siyasi və iqtisadi amillərin rolu, ya da prosesin özünün siyasi-iqtisadi hadisələrə təsiri vacibdir. Etnogenezis məsələsinə alimin bu baxışını öz təbirilə təxminən belə ümumiləşdirmək olar: « ... hər hansı bir ölkənin tarixinin əsas məzmunu onun dünya mədəniyyəti mübadiləsində iştirak dərəcəsinə bağlıdır. Xalqın etnoqrafik (etnik - R.Ş.) mənşəyi ... bu halda ikinci dərəcəli əhəmiyyət kəsb edir» (5, s.653). Yəni, V.V.Bartold danışdığımız dövrdə Qafqazda, o cümlədən, Azərbaycanda gedən etnik-siyasi prosesləri bölgənin iqtisadi və siyasi həyatına təsir gücünü müəyyən etmək üçün izləmişdir.

Tarixi Azərbaycan torpaqlarında məskunlaşmış tayfalar və onların coğrafi lokalizəsi ilə bağlı V.V.Bartoldun məlumatları xeyli genişdir, amma indiki halda tarixşünaslıq üçün köhnəlmiş sayıla bilər və bu səbəbdən, onları sadalamaq fikrində deyilik. Amma bu fikirlərin bəzilərinə müasir tarix elminin və Vətən tarixşünaslığının Azərbaycan xalqının etnogenezisinin araşdırılması sahəsində uğurlarını üzə çıxarmaq üçün nəzər yetirək.

Məsələn, Qafqaz albanlarının gürcülərlə eyni mənşəyə malik olduğu, (5, s.662), al-

ban dilində heç bir yazılı mənbənin dövrümüzədək gəlib çatmadığı (5, s.662), Albaniya əhalisinin «vəhşi xalq» olmasını inkar etmək üçün onlarda süni suvarma sisteminin mövcudluğunu dəlil gətirməsi (5, s.666), alban əlifbasının ermənilər tərəfindən tərtib edilməsi və s. haqqında alimin mülahizələri, şübhə yoxdur ki, həmin illərdə istər yazılı, istər maddi mənbələrin kifayət qədər öyrənilməməsi ilə bağlı olmuşdur və müasir tarixşünaslıq üçün mübahisə obyekti ola bilməz. Hazırda tarix elminin istifadəsində olan mənbələr tam əminliklə deməyə əsas verir ki, albanlar nəinki bölgənin, ümumiyyətlə Ön Asiyanın mədəni xalqlarından olmuş, iqtisadi və siyasi durumu isə sabitliyi ilə seçilmişdir. «Albanlar Qafqazın siyasi və mədəni həyatının bütün sahələrində... iştirak edirdilər» (2, II, s.119).

Antik müəlliflərin məlumatları da göstərir ki, albanlar hələ e.ə. I əsrdə beynəlxalq yazışmalarda belə öz yazılarından istifadə etmişlər (bax: 2, II, s.119). Üstəlik, ölkəmizin ərazisində bu yazıların nümunələri də aşkarlanmışdır: 1948-ci ildə Mingəçevirdə – Sudağılan adlı şəhərgahda, məbəbdin otaqların birindən tapılmış alban yazısı öz əhəmiyyətini bu gün də saxlamaqdadır.

Amma azərbaycanlıların etnogenezisi ilə bağlı V.V.Bartoldun elə fikirləri də var ki, mənbələrin çatışmazlığı ilə deyil, alimin öz elmi baxışı ilə əlaqəlidir və müasir Vətən tarixşünaslığında obyektivlik baxımından məqbul sayılmır. Bu mülahizələr aşağıdakı məsələlərlə bağlıdır:

1. «Azərbaycan» termininin coğrafi və etnik məzmunu
2. Azərbaycan əhalisinin mənşəyi
3. Azərbaycan xalqının formalaşması dövrü

Birinci məsələ ilə bağlı V.V.Bartoldda xeyli ziddiyyətli fikirlərə rast gəlmək olur. Akademik «Azərbaycan» anlayışının həm Cənubi Qafqaz respublikalarına (onun dövründə - Azərbaycan SSR), həm də İranın şimal-qərb əyalətlərinə aid edilməsini hər iki bölgənin əhalisinin eyni tərkibilə əlaqələndirsə də, bu vəhdətin yalnız səlcuq dövründən etibarən - yəni, Azərbaycan əhalisinin «türkləşməsi»ndən sonra bərqərar olduğunu iddia edir (4, s.775). Alimin fikrincə, Araz çayı uzun müddət «Qafqaz Azərbaycanını İran Azərbaycanından kəskin şəkildə *ayıran* (kursiv mənimdir - R.Ş.) etnoqrafik sərhəd olmuşdur» (4, s.775).

Ərəb mənbələrinin, dəqiq desək, əl-Müqəddəsinin məlumatlarına istinadən V.V.Bartold erkən orta əsrlərdə İran Azərbaycanında «azəri» dilində danışıldığını və bu dilin «arrani» dilindən tam fərqləndiyini yazır (4, s.777).

Doğrusu, V.V.Bartold kimi ciddi bir tədqiqatçının etnogenezis məsələsində sonrakı dövrün (X əsrdə yaşamış ərəb) müəllifinin məlumatlarına arxalanması təəccüb doğurur. Digər tərəfdən, V.V.Bartold özü də yaxşı bilir ki, klassik dövr - IX-X əsr ərəb müəlliflərinin riyazi və coğrafi bilikləri yüksək səviyyədə olsa da, etnik tarix məsələlərində kifayət qədər məlumatlı olmamışlar (bu barədə bax: 6). Əsərlərində «Yəcuc və Məcuc» xalqlarından, adamyeyən «yura və visu» əhalisindən uydurmalar yazan, bir çox tayfaların adlarını fərqinə varmadan qarışdıran (elə akademikin özünün araşdırdığı slavyanlarla bağlı ərəb müəlliflərinin ziddiyyətli xəbərlərini nümunə gətirmək kifayətdir), qeyri-ərəb xalqları haqqında bəzən qərəzli fikirlər söyləyən əl-İstəxri, Əbn Havqəl, əl-Məsudi, əl-Müqəddəsi xalqın formalaşması tarixi üzrə mötəbər mənbə sayıla bilməz. Digər tərəfdən, akademikin Azərbaycanın erkən etnik-siyasi tarixi ilə bağlı adları çəkilən müəlliflərdən daha erkənləri – IX əsrdə yaşamış (Azərbaycanı «ta qədimdən türklərin məskun olduğu» yer kimi təsvir edən) əl-Bəlazuri, Əbn Xordadbehdən istifadə etməməyi də təəccüblüdür.

«Azərbaycan» anlayışının yaranması məsələsinə gəlincə, V.V.Bartold onun zərdüştliklə əlaqəsinin olmadığını, «Atropatena» kəlməsinin şəkildəyişməsi olduğunu ya-

zır (4, s.776).

Azərbaycan əhalisinin mənşəyinə gəlincə, yuxarıda qeyd etdiyimiz kimi, V.V.Bartold bu problemlə bölgənin siyasi, iqtisadi, mədəni həyatına təsir dərəcəsi baxımından maraqlanmışdır. Elə bu səbəbdən də, həmin məsələ akademikdə ardıcıl izlənilmir. Albanların yafət mənşəli olduğunu bir neçə dəfə qeyd edən akademik (5, s.654; 4, s.777),* onların soykökündə kaspi tayfalarının durduğunu yazır. Akademik N.Y.Marrın «yafəti» nəzəriyyəsinə əsaslanan V.V.Bartold (bax: Marr), kaspilərin vaxtilə həm də Hind çayının yuxarı axarlarında yaşadığını və onların dilinin nə İran, nə türk dilləri ilə yaxın olmadığını güman edir (5, s.654-655).

V.V.Bartoldun bu gümanları təsadüfi deyil: onun dövründə bəzi dilçi-alimlər, o cümlədən akademikin tez-tez istinad etdiyi akademik N.Y.Marr Kancut əhalisinin dilinin Qafqaz dilləri ilə yaxınlıq dərəcəsini çox şişirdirdilər. Bu nəzəriyyəyə münasibət bildirən V.F.Minorski yazır ki, Kancut vilayətində yayılmış burusaşki dili, olsa-olsa, «sintaksis quruluşuna görə Qafqaz dillərilə eyniləşdirilə bilər» (bax: 5, s.655, qeyd 3).

Əslində «yafəti» nəzəriyyəsində V.V.Bartoldun diqqətini çəkən məqam aydındır: alimi albanların, kaspilərin və ya hər hansı digər xalqın dilinin özəlliklərindən çox, yafəti xalqlarının əhatə etdikləri məskunlaşma məkanı cəlb edir. V.V.Bartold özü də bu barədə açıq-aydın yazır: «Tarixçilər üçün bu nəzəriyyə («yafəti nəzəriyyəsi» - R.Ş.) ona görə maraqlıdır ki, Ön Asiya və qədim Avropanın vahid yerli əhalisinin mövcudluğunu, bu əhalinin sonralar bir tərəfdən - samilərə, digər tərəfdən - Hind-Avropa xalqlarına tabe olduğunu göstərir» (5, s.655).

V.V.Bartold linqvistik məqamlara böyük yer ayırmasa da, alban dilinin erməni dilindən qəti şəkildə fərqləndiyini, alban dilində olan bəzi səslərin erməni dilində olmadığını da göstərir (5, s.663). Həqiqətən, mütəxəssislər V əsrin əvvəllərində təkmilləşdirilmiş 52 fonemli alban əlifbasının fışıltılı və boğaz samitləri ilə zəngin olduğunu qeyd edirlər (bu barədə bax: 2, II, s.119). Elə V əsrin erməni müəlliflərinin özlərinin etiraf etdikləri kimi, alban dili ermənilər üçün «yad dil» olmuşdur (2, II, s.119). Ümumiyyətlə, V.V.Bartoldun tədqiqatlarının heç birində albanlarla ermənilərin eyniləşdirilməsinə rast gəlinmir.

Alban dilinin yoxa çıxmasına gəlincə, bu faktı albanları ermənilərin əcdadları kimi təqdim edən və bu sonuncuların alban dilinin indiki daşıyıcıları olmaları haqqında mülahizələrində başlıca arqument kimi istifadə edənlərin əleyhinə çıxan V.V.Bartold yazır: «Xarəzm dili də tamamilə yoxa çıxmışdır. Baxmayaraq ki, XI əsrə qədər bu dildə yazılmış sənədlər hələ də vardır... Düşünürəm ki, bəzi alban sözləri də müasir əhalinin dilində saxlanmışdır və ola bilsin, hətta keçmiş Bakı quberniyasında rast gəlinir» (5, s.662-663).

Azərbaycan xalqının formalaşmasının xronoloji çərçivəsi də XX yüzilliyin tarixçilərini düşündürən məsələlərdən olmuşdur. Etnogenezislə məşğul olan sovet tarixçilərinin əsərlərinin, demək olar ki, hər birində belə bir qırmızı xətt keçir ki, Azərbaycan xalqının formalaşması XII əsrin hadisəsidir və bunun da başlıca şərti səlcuq yürüşləridir (ətraflı bax: 1).

Əslində məsələnin mahiyyəti sadəcə xalqın formalaşması dövrünü bacardıqca «yaxına» gətirməkdə (hər halda Azərbaycan xalqının «böyük qardaşı» rus xalqından daha tez formalaşması fikri qeyri-məqbul idi) deyil, həm də azərbaycanlıların soykökünün türklərə bağlılığını işğal faktı ilə izah etmək cəhdində idi.

V.V.Bartold kimi daha onlarla [erkən] sovet tarixçisi bu ideyaya məcbur edilmişdi və səlcuqlara qədər Azərbaycanda türk kökünün olmasını inkar edə bilməyən bu tədqi-

* Maraqlıdır ki, V.V.Bartold türklərin də yafəti mənşəli olduğunu yazır (bax: 3, s.578-579).

qatçılar (xüsusilə «Kitabi-Dədə Qorqud»u təsdiq edən və nəşrini hazırlayan V.V.Bartold) Qafqazda səlcuq yürüşlərinin və səlcuq hakimiyyətinin Azərbaycan xalqının türkləşməsinə gətirib çıxarmasını yazmalı olurdular (4, s.775, 778 və s.).

Amma V.V.Bartoldun etnogenezis məsələsinə böyük marağının olmamasının nəticəsidir ki, Azərbaycanın «türkləşməsi» prosesinin nə məzmunu, nə səbəbi izlənilmir və üzərindən səthi keçilir.

Bölmənin əvvəlində dediyimiz kimi, Azərbaycan xalqının etnogenezisi ilə bağlı akademik V.V.Bartoldun mülahizələri xeyli köhnəlmiş sayılır. Amma nəzərdən keçirdiyimiz məsələlər bir daha göstərir ki, Vətən tarixşünaslığında əvvəlki tədqiqatların kompilyasiyasından qaçılmış, adı çəkilən problemin həllində çox böyük nailiyyətlər əldə edilmişdir.

### *ƏDƏBIYYAT:*

1.Azərbaycan tarixi (3 cilddə). İ.A.Hüseynov və başqalarının red. ilə. I cild. Ən qədim zamanlardan Azərbaycanın Rusiyaya ilhaqına qədər. Bakı, 1958. - 448 s.
2.Azərbaycan tarixi (7 cilddə). II cild. III-XIII əsrin birinci rübü. Bakı, 1998; III cild. XIII-XV əsrlər. - Bakı, «Elm», 1998.
3.Бартольд В.В. История Туркестана – Сочинения, т.II, часть I, М., 1963 – с.109-168.
4.Бартольд В.В. Краткий обзор истории Азербайджана – Сочинения, т.II, часть I, Москва, 1963 – с.775-783.
5.Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира – Сочинения, т.II, часть I, Москва, 1963 – с.651-774.
6.Крачковский И.Ю. Арабская географическая литература – Избранные сочинения, т. IV, Москва – Ленинград, 1957.

**Р.Ш. ШАХБАЗОВА**
**ВЗГЛЯДЫ В.В.БАРТОЛЬДА НА ВОПРОСЫ ЭТНИЧЕСКОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА**

В обзорных работах В.В.Бартольда – таких, как «Место прикаспийских областей в истории мусульманского мира», «История Азербайджана»,- особенно ясно отразились исторические концепции автора, его подход к проблемам этногенезиса азербайджанского народа. Особое внимание в этих работах уделено истории тюркских народов Кавказа, их роли в формировании народов региона. Несмотря на некоторые недостатки, труды академика В.В.Бартольда представляют большую научную ценность для изучения истории Азербайджана.

**R.SH. SHAHBAZOVA.**
**V.V. BARTOLDS LOOK TO ETHNIC- HISTORICAL PROBLEMS OF AZERBAIJAN**

In the articles of V.V.Bartold named as "The place of the Caspian regions in the history of Moslem world " and " Azerbaijan history " has been reflected his historical conceptions and his attitude to ethnogenesis problem of the azerbaijan people. In the articles have been paid special attention to the history of the Turkish people living in the Caucasian and the role they played in forming of the people living in the region. In spite of some shortcomings, V.V.Bartolds works are valuable for learning of Azerbaijan history.

***Rəyçilər: t.e.n.Y.H.Gözəlova, t.e.d.İ.M.Məmmədov.***
***BDU-nun Tarix fakültəsi Qədim dünya və orta əsrlər tarixi kafedrasının 19 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***